# Haqqında yazılanlardan seçmələr

### *Gülhüseyn Hüseynoğlu ədəbiyyatşünas - müşfiqşünasdır*

G.Hüseynoğlu ədəbiyyatşünas - müşfiqşünasdır. Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinə dair onlarla maraqlı məqalənin müəllifi olsa da, elmi - ədəbi ictimaiyyət onu daha çox görkəmli müşfiqşünas kimi tanıyır. O, böyük şairin indiyə qədər iyirmidən artıq kitabını tərtib, redaktə edib nəşr etdirmişdir. G. Hüseynoğlu M. Müşfiq haqqında ilk monoqrafiyanı yazmış, ilk disseratsiyanı müdafiə etmiş, ali məktəb tələbələri üçün ilk dərs vəsaitini hazırlayıb çap etdirmişdir. "Müşfiq" monoqrafiyası (Bakı, 1968) şair haqqında bu günə qədər əsas elmi mənbə olaraq qalmaqdadır. Həcmcə kiçik, ancaq məzmun-mündərəcə etibarilə böyük "Müşfiq" monoqrafiyası belə başlanır: "Böyük fitri istedad, coşqun ilham, böyük səmimiyyət, poeziyaya bütün varlığı ilə vurğun bir şəxsiyyət... Bəli, Müşfiq haqqında düşünməyə, yaxud yazmağa başlar-başlamaz öncə xəyalda bu keyfiyyətlər, bu sifətlər canlanır"... G. Hüseynoğlu həmin monoqrafiyada müasir Azərbaycan poeziyasının banilərindən biri olan Müşfiqin həyatı, yaradıcılığının əsas mərhələləri, lirikası, epik poeziyası, uşaqlar üçün yazdığı əsərlər barəsində yığcam bir şəkildə bəhs etmiş, kitabını metaforik olduğu qədər də real olan aşağıdakı sözlərlə bitirmişdir: "Müşfiqin şeiri də, özü də ürəklərdədir! Ürəklərdə!".

"Müşfiq" monoqrafiyasından sonra G. Hüseynoğlu böyük şairin yaradıcılığı üzərindəki tədqiqatını daha da genişləndirdi, onlarla məqalələr yazdı. Və nəhayət, "M. Müşfiqin yaradıcılıq yolu" dərs vəsaitini nəşr etdirdi. On ildən artıq ali məktəb tələbələrinin faydalandığı həmin əsər sadəcə dərs vəsaiti deyil, eyni zamanda dəyərli elmi tədqiqat əsəridir. Burada müşfiqşünaslığın problemləri, böyük şairin ədəbi - estetik görüşləri, əsərlərinin mətnşünaslığı və s. məsələlər ilk dəfə araşdırılmış, müəllif kifayət qədər əsaslı qənaətlərə gəlmişdir.

M.Müşfiqin əvəzolunmaz tədqiqatçısının M. Müşfiqlə əlaqədar apardığı araşdırmaların miqyasını (və mükəmməliyini) müəyyən etmək üçün onun yalnız bir cümləsinin məna tutumuna, siqlətinə diqqət yetirmək kifayətdir: "Şairi ürəklərdə yaşadan, zəngin ədəbi irsini xalqa sevdirən, şeirlərini oxucuların dilinin əzbəri edən poeziyasının xəlqiliyi, vətənpərvərliyi, müasirliyi, humanizmidir, yüksək sənətkarlığıdır, orijinallığı, novatorluğudur". Burada Müşfiqin yaradıcılığı barədə işlədilmiş hər bir təyinin arxasında böyük tədqiqatçı zəhməti, ətraflı araşdırmalar, elmi-ictimai məsuliyyət dayanır. Xüsusilə buradakı məsuliyyət anlayışı üzərində dayanmaq istərdik... G. Hüseynoğlu ümumiyyətlə məsuliyyətli tədqiqatçıdır, lakin M.Müşfiqə, onun yaradıcılığına münasibətdə o daha böyük məsuliyyət hiss edir, şairin hər sözü üzərində zərgər dəqiqliyi ilə işləyir.

Müasir Azərbaycan ədəbiyyatınının müxtəlif problemlərinə, ayrı - ayrı görkəmli sənətkarların (S. M. Qənizadənin, M. Hüseynin, N. Rəfibəylinin, Mir Cəlalın və b.) yaradıcılığına həsr olunmuş məqalələri G. Hüseynoğlunun tədqiqatçı - ədəbiyyatşünas üslubunu müəyyən edir. Bu üslub sərtdir, güzəştsizdir, boğazdan yuxarı mühakimələrdən, saxta təriflərdən uzaqdır, eyni zamanda səmimidir.

G.Hüseynoğlu, artıq qeyd etdiyimiz kimi, M. Müşfiqi sadəcə tədqiq etmir, ruhən onunla yaşayır, onunla nəfəs alır... Və hər il şairin doğma kəndində, yurdunda onun xatirə günlərinin keçirilməsinə rəhbərlik edir. G. Hüseynoğlu müşfiqləşir, ölkə ictimaiyyətinə də "Müşfiqli günlər" bəxş edir.

Müşfiqi xatırlamaq, heç olmasa ildə iki dəfə "Müşfiqli günlər" yaşamaq yalnız həyatdan vaxtsız getmiş böyük bir sənətkara hörmət, ehtiram deyil, həm də (və bəlkə də, daha çox!) Azərbaycan ədəbi-ictimai mühitinin, ümumən cəmiyyətinin mənən sağlamlaşması, ruhən güclü olması üçün lazımdır. Çünki Müşfiq Azərbaycan xalqının yaddaşında saf, qaynar (və gənc!) bir enerji kimi formalaşıb qalmışdır. Bu enerji eyni zamanda azərbaycanlıların şərə, irticaya, düşmənə müqavimət qabiliyyətini təcəssüm etdirir. Və sübut edir ki, Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi naminə qurban verməyə həmişə hazır olmuş, "bir gün azad yaşamağı, yüz il əsirlikdə qalmaqdan" üstün tutmuşdur.

G.Hüseynoğlu son müsahibələrinin birində qeyd edir ki, "yaradıcılıqdan heç vaxt uzaq düşmürəm. Məni yaşadan həm də qələmlə dostluğumdur. Repressiya illərində Şərqi Sibirin Tayşet rayonunda siyasi düşərgədə məhbus olarkən azadlıq naminə yaratdığımız "İldırım" təşkilatının məramı, fəaliyyəti, əqidə yoldaşlarım barədə kitab üzərində düşünürəm... Düşünürəm ki, cəsurların birləşdiyi "İldırım" təşkilatının salnaməsini yazmaq bir borcdur və mənim taleyimə düşüb".

Xüsusi olaraq sübut etməyə ehtiyac yoxdur ki, G. Hüseynoğlu həyatını, o cümlədən də yaradıcılıq həyatını olduqca mənalı yaşamış insanlardandır – o nə iş görmüşdürsə, özündən çox millətini, xalqını, vətənini düşünüb görmüşdür. Ona görə də G. Hüseynoğlunun, sadəcə, adını çəkmək kifayətdir ki, eşidənlərin üzünə xoş bir təbəssüm yayılsın, ürəkləri açılsın, ruhları təzələnsin... Etiraf edirik ki, bu mürəkkəb, müxtəlif maraqların toqquşduğu münaqişələrlə zəngin dünyada G. Hüseynoğlu düzlüyü, prinsipiallığı böyük bir iş görməyə, yəqin ki, qadir deyil, lakin bu da bir kişilikdir ki, qaraya ağ, ağa qara deməyəsən, mübarizə aparmağa gücün çatmayan yerdə də özündə güc tapıb etirazını bildirə biləsən... Və başlıcası, bir an belə mənən, ruhən məğlub olmayasan. Gülhüseyn Hüseynoğlu kimi!..

***Akademik Nizami Cəfərovun yazıçı Gülhüseyn Hüseynoğlu haqqında yazdığı kitabından...***

## *Mənsur şeir ustası: Gülhüseyn Hüseynoğlu*

### *("Ədəbiyyatımızın cəfakeşləri" silsiləsindən)*

Hələ ADU-nun tələbəsi ikən (1944) "Ana" adlı hekayəsi "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdu. Analara məhəbbət, rəğbət ifadə edən bu hekayəni o zaman Səməd Vurğun oxuyub bəyənmişdi. 1946 - cı ildə isə "Bənövşə əfsanəsi" adlı mənsur şeiri çap olunur və Gülhüseyn Hüseynoğlunun yaradıcılığında bu iki xətt- sırf nəsr və mənsur şeir paralel şəkildə davam edir.

Gülhüseyn Hüseynoğlu Azərbaycan ədəbiyyatında ilk növbədə, mənsur şeir ustası kimi tanınır və onun yaradıcılığı haqqında söhbətə də məhz bu nöqtədən başlamaq lazımdır.

Tədqiqatçıların araşdırmalarına görə "mənsur şeir" terminini dünya ədəbiyyatında ilk dəfə fransız yazıçısı Aloiziyus Bertran (1807-1841) gətirmişdir. Bertrandan sonra fransız şairlərindən Şarl Bodler (1821-1867) və Artur Rembo (1854-1891) da bu janrda əsərlər yazmışlar. Böyük rus yazıçısı İ.S.Turgenevin də (1818-1883) mənsur şeirləri məşhurdur. Daha sonra hind ədəbiyyatında R.Taqor, türk ədəbiyyatında Xalid Ziya da mənsur şeir ustası kimi tanınmışlar.

Azərbaycan ədəbiyyatında isə mənsur şeir janrına ilk dəfə müraciət edən XX əsr Azərbaycan romantizminin banilərindən olan Məhəmməd Hadidir. Filologiya elmləri doktoru Hüseyn Həşimli "Azərbaycan mənsur şeirinin təşəkkülü" monoqrafiyasında (Bakı, "Nurlan" nəşriyyatı, 2006, səh. 37) qeyd edir ki, Məhəmməd Hadinin 1908-ci ildə Bakıda, "Kaspi" mətbəəsində çap olunmuş "Firdovsi - ilhamat" kitabının 221-232-ci səhifələrində onun "Düşündüklərim" adı altında birləşən mənsur şeirləri verilmişdir". H. Həşimli daha sonra Abdulla Surun, T.Ş.Simurğun, Seyid Hüseynin, N.Nərimanovun, Y.V.Çəmənzəminlinin, iyirminci-otuzuncu illərdə isə Ə.Tağızadənin, A. Böyükzadənin, Əkrəm Cəfərin, H. Nəzərlinin də mənsur şeirlərindən söz açır. Daha sonrakı illərdə Nigar Rəfibəyli, Cəfər Bağırı, Qərib Mehdi və İslam Ağayev də bu janra müraciət etmişlər. Lakin etiraf olunmalıdır ki, Azərbaycan ədəbiyyatında mənsur şeirin populyarlaşmasında, oxucular arasında rəğbət qazanmasında Gülhüseyn Hüseyn-oğlunun böyük əməyi vardır.

Ədəbiyyatşünaslar arasında mənsur şeirin janr xüsusiyyətləri barədə müxtəlif fikirlər söylənilmişdir. Bəziləri onu nəsrin, bəziləri isə şeirin janrı hesab etmişlər. Ancaq ikincilər üstünlük təşkil edir və onların mənsur şeirlə bağlı fikirləri daha dəqiqdir. Professor Mir Cəlal Paşayev yazır: "Lirik və epik xüsusiyyətlərin müştərək, birgə halında iştirak etdiyi, həm də insanın daxili, hissi aləmini qələmə alan, vəzn, qafiyə, bölgü kimi nəzm şərtlərindən uzaq, təbii ritmik nəsr dili ilə yığcam yazılan əsərlərə mənsur şeir adı verirlər. Burada şeirə xas əlamət obyektə (insan, hadisə, təbiət) münasibətdə məhz həyəcanın, daxili fərdi təsirin ön plana çəkilməsidir. Müəllif sanki xarici obyektiv aləmdən ayrılıb, təcrid olunaraq bir an özünü cəlb edən,

özünə hər şeyi unutduran bir mövzunun əsiri olur. Hiss-həyəcanlarını, yazı məharətini ifadə üçün təsvirin gözəlliyi, zərifliyi; söz, tərkib, ifadələrin diqqətlə seçilməsi gərəkdir".

Bu tərif sanki bütünlüklə Gülhüseyn Hüseynoğlunun mənsur şeirləri üçün deyilib.

Gülhüseyn Hüseynoğlunun mənsur şeirlərinin mövzu dairəsi genişdir. Əsasən insan qəlbinin lirik - romantik duyğularını ifadə edən mənsur şeirlərdə həyatın, gerçəkliyin düşündürücü mətləbləri öz əksini tapır. Hər bir mənsur şeirin öz mövzusu var və G. Hüseynoğlu lirik duyğu və düşüncələrini də hər hansı mövzunun tələbinə görə uyğunlaşdırır. Müəllif "Mənsur şeirlərim mənim" yazısında fikrini belə ümumiləşdirir: "Ana torpaq, insaniyyət, halal çörək, fədakarlıq, əvəzini gözləməyən xeyirxahlıq, insan kimi düşünüb də insan kimi yaşamaq, bütöv olmaq - həmişəlik söhbətimiz, sözümüzdür. Yanılmalar, aldanmalar, çəkilməz hicran yanğısı, qəlb ağrısı - düşüncəniz, qayğınızdır, ağrınızdır, mövzunuzdur, mövzunuzdur. Sevincə, kədərə ortaqsınız. Yalandan, riyadan uzaqsınız. Nə yaxşı ki, varsınız!.."

Onun mənsur şeirlərini iki qismə bölmək olar. Birinci bölgüdə sırf lirik duyğular ifadə olunur və burada konkret olaraq heç bir hadisədən söhbət getmir. Sadəcə olaraq müəllif müəyyən bir məsələyə öz münasibətini bildirir. Məsələn: "Yol çəkən gözlər", "Hanı?", "Axar su", "İstəmirəm", "Qəsbkar", "Gözləyirik", "Ağlamayın!", "Məhəbbətdirmi bu?!", "İki damla göz yaşı", "İstək", "Payız", "Gecikdikcə geciksin", "Ağaclarım", "Ümid və həqiqət", "Ömrümüz boyu", "Əsrlərdən əsrlərə", "Humanizm" mənsur şeirlərində müəyyən bir fikir ifadə olunur. Burada mənsur şeirlərə xas olan ritm, müəyyən sözlərin tez-tez təkrar olunması, melodik ahəng diqqəti cəlb edir.

"Bülbül meşə istəyir. Gül qoxulu, bahar ədalı, xoş sədalı meşə. İstəyincə, ürəyincə cəh-cəh vurmaq üçün.

Qartal dağ istəyir. Dörd bir yanı sıldırım qayalı dağ. Qıy vurub ənginliklərə şığımaq, səma dərinliklərinə yol almaq üçün.

Qağayı dəniz istəyir. Balıq nəfəsli, sahilləri insan ləpirli dəniz. Doyunca, yorulunca süzmək, hey süzmək üçün.

Sənətkar sərbəstlik. Ürəklərə girmək üçün, əsrlərə getmək üçün!" (G. Hüseynoğlu. Qatar gedir. - Bakı: Gənclik, 1983. - s. 60.)

"İstək" adlı bu mənsur şeirdə, dörd yığcam abzasda dörd fikir söylənilir və əvvəllinci üç abzas dördüncüsü üçün vəsilə olur. Bülbülün meşə, qartalın dağ, qağayının dəniz istəkləri sənətkarın sərbəstlik istəyi ilə paralel təqdim edilir. Hər bir istək onu arzulayanın xarakterindən doğur.

Gülhüseyn Hüseynoğlunun mənsur şeirlərində təkrirlər çox işlənir və bu da mətndə yeksənəklik yaratmır, əksinə, fikri qüvvətləndirən məcazi bir vasitəyə çevrilir. Məsələn, "Axar su" mənsur şeirinə diqqət yetirək:

Axır suya baxıram... Şeh damlası kimi şəffaf, şırıldaya - şırıldaya axan suya! Axır, axır. Baxıram, ürəyim axır.

Axar suya baxıram. Könlüm - ruhum, qolum - qanadım açılır.

Axar suya baxıram. Uzaq - uzaq yollar, məsafələr qısalır. Ümid çoxalır.

Axar suya baxıram. Ömür mənalanır, fikirlər qol - budaq atır, şaxələnir.

Axar suya baxıram. Axır, axır.

Axar su durğunluğu sevməz. Sevirəm axar suyu, sevirəm! (G.Hüseynoğlu. Qatar gedir.- Bakı: Gənclik, 1983.- səh. 39.)

Mənsur şeirlərində G. Hüseynoğlunun dil və üslub gözəlliyi hiss olunur: fikir aydınlığı, sadə və lirik təsvir üsulu, sözə qənaət, bədii təsvir vasitələrinə müraciət bu mənsur şeirləri oxucuya sevdirən başlıca xüsusiyyətlərdir. "Azərbaycan dili" mənsur şeirinə diqqət yetirək: "Anamın südündə, vətənimin havasında, çörəyimdə, suyumda səni duymuşam!

Torpağımda, daşımda, çölümdə-çəmənimdə, Kürümdə-Arazımda, Xəzərimdə səni görmüşəm!

Elimdə - günümdə, dərsimdə - kitabımda səni sevmişəm! Sevmişəm, a mənim tarixin eniş - yoxuşlarında xalqımın göz bəbəyi kimi qoruduğu dilim! Azərbaycan dilim!"

Gülhüseyn Hüseynoğlunun mənsur şeir yaradıcılığında müəyyən hadisə üstündə qurulan süjetli nümunələr də az deyil. Əgər öncə misal gətirilən nümunələr ifadə tərzinə, ritm və ahənginə görə şeirə daha çox oxşayırsa, müəyyən süjetə malik olan mənsur şeirlər isə lirik hekayəyə bənzəyirlər.

"Mücrü" mənsur şeiri bir ömrün həyat dastanını oxucunun gözləri qarşısında canlandırır. Rus yazıçısı Konstantin Fedin bu mənsur şeir haqqında ürək sözlərini belə ifadə etmişdi: "Öz vətənində çox yaxşı tanınan Azərbaycan yazıçısı Gülhüseyn Hüseynoğlu ilə məni təsadüf tanış etdi. O, nasirdir və mənsur şeir yazır. Canrgo qədər də yeni deyildir. Ancaq əlyazmasını oxuyarkən mən bu qənaətə gəldim ki, bunlar, heç şübhəsiz, bizi sovet xalqlarının poeziyasında meydana çıxan diqqətəlayiq nümunələrlə tanış edən "Drujba narodov" jurnalında çap olunmağa layiqdir.

"Mücrü" şeiri barədə danışmaq istərdim... Bu əsər ona görə diqqətəlayiqdir ki, oxucunun hissini hökmlə, lakin çox incə bir tərzdə keçmiş günlərdən bu günə gətirib çıxarır və yeni dünyamızı onun əsl ideal mənasında açıb göstərir.

Əsərdəki məcaz varlığın canlı obrazına çevrilir. Bu metamarfoza məni ovsunlamışdır" ("Drujba narodov" jurnalı, 1970, № 6, səh. 125).

"Mücrü" G. Hüseynoğlunun mənsur şeirləri içərisində elə bir nümunədir ki, həm ideyası, aşıladığı məzmunu, həm də forma - sənətkarlıq məziyyətləri ilə xüsusilə seçilir, fərqlənir. Yəni "mənsur şeir necə olmalıdır?" sualını bütün parametrləri ilə müsbət cavablandıran bir nümunədir. Cəmi 23 kiçik abzasdan ibarət olan bu mətndə şeirlə nəsrin möhtəşəm vəhdəti yaradılır. Cümlələr, abzaslar, kiçicik mətn parçaları bir - birini əvəz etdikcə, bir ananın və bir ailənin həyat tarixçəsini gözlərimiz qarşısında canlanır. Ahəngi, emosionallığı etibarilə şeirə oxşayan, amma vəznsiz, qafiyəsiz olan bu parçada bir hekayənin, yaxud povestin materialı ola biləcək həyat hadisələri ilə qarşılaşırıq. "O, gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. "Gəlin mücrüsüz olmaz!" dedi"- "Mücrü" mənsur şeiri bu cümlə ilə başlayır və mətndəki mücrü rəmzi məna daşıyır: etibarın, ailə şərəfinin, vəfa və sədaqətin, övlada məhəbbətin, həyatda qazanılan uğurların daşıyıcısı-qoruyucusudur mücrü. "Açıldı mücrü, örtüldü mücrü, boşaldı mücrü"- bu sətirlər həyatın dialetikasını, şərəflə yaşamış bir ailənin çətin, məşəqqətli, amma həm də sevinclərlə, uğurlarla, xoş anlarla dolu olan ömür yolunu səciyyələndirir.

Gülhüseyn Hüseynoğlunun bu qəbildən olan mənsur şeirlərini HƏYAT LÖVHƏLƏRİ də adlandırmaq olar. "İnsan", "İlk qədəm", "İşıq və zülmət", "Mücdəçi", "Gənc ananın etirafı", "Bənövşə əfsanəsi", "Gözəl", "Küsülülər", "Kişilik", "Ən sağalmaz yara" mənsur şeirləri ona görə maraqla oxunur ki, bu yazılarda real həyat hadisələri öz əksini tapır. Xeyir və şər, işıq və zülmət, sevgi və nifrət, vəfa və xəyanət..mənsur şeirlərdə bədii təzadların silsiləsini təşkil edir.

Gülhüseyn Hüseynoğlunun nəsr yaradıcılığı da özünəməxsusluğu ilə seçilir. Onun novella, hekayə və povestləri yaşadığı dövrün sosial - mənəvi ab - havasını əks etdirir və bu nəsr əsərlərinin əsas mövzusu da müasir insanın həyatından, dünyaya, gerçəkliyə, yaşadığı mühitə, ailəyə, sevgiyə, təbiətə, işlədiyi kollektivə münasibətindən doğan hadisələr üzərində qurulmuşdur.

Novellaları içərisində "Nigarançılığın sonu" nəsrimizdə uğurlu bir hadisə kimi qeyd edilir.

İki gözəl insan - zərgərlik mağazasında satıcı işləyən Nazəninlə neftçıxarma briqadasında usta köməkçisi işləyən Mustafa arasında yaranan adi ünsiyyət get - gedə qarşılıqlı məhəbbətə çevrilir. Hər ikisi hiss edir ki, tale onları əbəs yerə bir - biri ilə qarşılaşdırmayıb, amma hisslərini büruzə verməkdə uzun müddət tərəddüd edirlər. Nazənin: "Onsuz yaşaya bilərəmmi..necə olsa, özümü ələ alacağam. Hisslərimi boğacağam"- deyisə də, özünü o yerə qoymur, Mustafanı sevir. Mustafa da kənddən qayıdandan sonra qərara alır ki, ürəyində gün - gündən ona rahatlıq verməyən "mənim sevdiyim qız sənsən, Nazənin, sən!" kəlmələrini sevdiyi qıza söyləsin. Beləliklə, əsl, saf bir sevgi iki ürəyi əbədi birləşdirir, nigarançılığa son qoyulur.

Gülhüseyn Hüseynoğlunun hekayələrini mövzular üzrə müəyyən bölgülərə ayırmaq istəməzdik. Lakin onları küllən HƏYAT HEKAYƏLƏRİ adlandıra bilərik. Ailə münasibətləri, gənclərin sevgi duyğuları, vəzifəpərəstliyin, karyerizmin, cəmiyyətə zidd digər mənfi halların tənqidi, halal əməyin tərənnümü, analara, atalara sonsuz ehtiram, mənəvi saflığa çağırış və başqa həyati məsələlər onun hekayələrinin əsas qayəsini təşkil edir. Onun təqdim etdiyi qəhrəmanlar adi insanlardır, lakin bu adi insanlar mənən saf və işıqlı, təmiz və xeyirxahdırlar. "Vaxt keçirdi" hekayəsinin qəhrəmanı Türkan gözəl bir qızdır, həyatında bir çox bədbəxtliklərlə üzləşib, atası da, anası da çoxdan ölüb. Gözəldir, mənən safdır və həyatda kimin pis, kimin yaxşı olduğunun da fərqinə varır. Buna görə də Sərfi arvadın oğlu Əbülün evlənmək təklifini rədd edir. O, Neft daşlarında birgə işlədiyi Müqbilə könül verir. Adi bir əhvalatdır, ancaq G. Hüseynoağlu bu adi əhvalatı maraqlı hadisələrlə oxucuya çatdırır. "Geoloq qız" hekayəsində isə başlanğıc və sonluq təzad təşkil edir. Belə ki, iki gəncin - Neft daşlarında işləyən Yadigarla Xalisənin saf, təmiz məhəbbəti, bir-birinə könül verib toya hazırlaşmaları sonda faciə ilə bitir. Yadigar fırtına zamanı həlak olur.

Gülhüseyn Hüseynoğlu "Yana-yana", "Adam istəsə", "Xəzərin qoynunda" adlı üç povestin də müəllifidir. Hekayələrindəki incə müşahidə qabiliyyəti, təqdim etdiyi obrazların səciyyəvi xüsusiyyətlərini aça bilmək səriştəsi, süjeti maraqlı, düşündürücü hadisələr əsasında inkişaf etdirməsi onun povestlərində daha aydın nəzərə çarpır.

"Yana-yana" povesti böyük el sənətkarı Aşıq Ələsgərin gənclik illərindən söz açır. Lirik hissləri, insan qəlbinin, insan sevgisinin ən zərif, kövrək məqamlarını əks etdirən bu povest ilk cümləsindən başlamış oxucunu öz ardınca çəkir, gənc Ələsgərin keçirdiyi hisslər, onun varlı evində nökərçilik etməsi, burada Səhnəbanuya aşiq olması, onun eşqiylə gözəl qoşmalar söyləməsi və nəhayət, bu eşqin qarşısına çıxan maneələr..bütün bunlar Aşıq Ələsgərin tərcümeyi - halı ilə uyğundur. Lakin təbii ki, tərcümeyi - halla bədii əsər arasında eynilik ola bilməz. Çünki bədii əsərdə qəhrəmanın keçirdiyi hisslər, onun çevgisi, əhatə olunduğu mühit və qarşılaşdığı çətinliklər müəllifin bədii təxəyyülünün məhsuludur və Gülhüseyn Hüseynoğlu professional bir yazıçı kimi bunları ustalıqla təsvir edə bilmişdir.

Gülhüseyn Hüseynoğlu Azərbaycan ədəbiyyatında mənsur şeir ustası və bir sıra maraqlı, düşündürücü nəsr əsərlərinin müəllifi kimi özünəməxsus yer tutur və bu əsərlər onu bir sənətkar kimi yaşadacaqdır... /Ədalət. - 2014. - 21 iyun. - S.14.

**Vaqif Yusifli,**
**filologiya elmləri doktoru**

*https://manera.az/nesr/7475-mensur - sheir-ustasi-gulhuseyn-huseynoglu.html*

## *Qənirə Paşayeva Azərbaycanın Xalq yazıçısı Gülhüseyn Hüseynoğludan yazdı*

Bugün tanınmış nasir, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycanın Xalq yazıçısı, ədəbiyyatımızda mənsur şerin banisi, ilk Müşfiqşünas, antisovet "İldırım" təşkilatının qurucularından və respublikanın ilk dissidentlərindən biri Gülhüseyn Hüseynoğlunun anım günüdür.

Gülhüseyn Hüseynoğlu (Gülhüseyn Hüseyn oğlu Abdullayev; 16.10.1923, Mollaoba, Masallı – 08.07.2013, Bakı) – 3-4 yaşındaykən ailəsi ilə birgə Bakıya köçüb, orta təhsilini Bakıda alıb. 1947 - ci ildə BDU - nun (o zamankı ADU) Filologiya fakültəsini bitirib, aspiranturaya qəbul olunub, lakin şəxsiyyətə pərəstiş dövrünə təvafüq edən antisovet fəaliyyətinə görə həbs edildiyi üçün bu pillədə təhsili yarımçıq qalıb. Ədib 25 il müddətinə azadlıqdan məhrum olunub; yalnız 1956 - cı ildə ölkədə ictimai - siyasi yumşalma başladığından ona tam bəraət verilib və aspiranturaya bərpa edilib. Gülhüseyn Hüseynoğlu yaddaqalan oçerk, povest və elmi - tədqiqat əsərləri yazsa da, bədii yaradıcılığında mənsur şeir və hekayə başlıca yer tutub; "Ana" adlı ilk hekayəsi 1944 - cü ildə, "Bənövşə əfsanəsi" adlı ilk mənsur şeiri isə 1946 - cı ildə yayınlanıb. Azərbaycan Yazıçılar Birliyinin (AYB) V Qurultayından başlayaraq, İdarə heyətinin üzvü seçilib. AYB - nin X Qurultayında Birliyin Nəsr bölməsinin başçısı seçilib. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə çevrilib; indiyədək otuza yaxın kitabı kütləvi tirajla buraxılıb.

"Xəzərin qoynunda" (1957), "Bir ömrün çıraqları" (hekayələr və povest; 1958), "Etiraf" (hekayələr və mənsur şeirlər; 1961), "Nigarançılığın sonu" (hekayələr və mənsur şeirlər; 1963), "Mənsur şeirlər" (1964), "Ay nur çiləyəndə" (hekayələr və mənsur şeirlər; 1964), "Yaşatmaq üçün" (hekayələr və mənsur şeirlər; 1966), "Müşfiq" (həyat və yaralıcılığı; 1968), "İnsan (mənsur şeirlər; 1968), "Mücrü" (mənsur şeirlər; 1972), "Seçilmiş əsərləri" (1974), "Ömrümüz boyu" (mənsur şeirlər və hekayələr; 1978), "İnsanlar və dalğalar" (hekayələr, povestlər, ssenarilər; 1982), "Qatar gedir" (mənsur şeirlər və hekayələr; 1983), "Yana - yana" (hekayələr, povestlər, mənsur şeirlər, ssenarilər; 1986), "Çətin yol" (hekayələr, sənədli povest, mənsur şeirlər; 1987), "M. Müşfiqin yaradıcılıq yolu" (dərs vəsaiti; 1987), "Kişi kimi" (1992), "Seçilmiş əsərləri" (iki cilddə; 1993), "Məhəbbətdirmi bu?" (1996), "Mikayıl Müşfiq" (albom -kitab; 1999) və başqa kitabları ədəbi - estetik, milli düşüncəmizə özünəsax rəng qatıb, dəyər qazandırıb. Əmək fəaliyyətinə hələ tələbə ikən - 1942 - ci ildə o vaxtkı "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi olaraq başlayan G. Hüseynoğlu, 1945 -1947 - ci illərdə "Ədəbiyyat qəzeti"ndə, 1947 - 1948 - ci illərdə isə Gənc Tamaşaçılar Teatrında işləyib. Bir müddət, M. Müşfiq adına 18 saylı məktəbdə dərs deyib. 1957 - ci ildə BDU - da müəllimliyə başlayıb; universitetin Filologiya fakültəsində müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışıb. G. Hüseynoğlu şəxsiyyətə pərəstişin ilk qurbanlarından olan M. Müşfiq haqqında ilk monoqrafiyanın, ilk dissertasiyanın və ali məktəblər üçün ilk dərs vəsaitinin müəllifidir.

G. Hüseynoğlu haqqında danışarkən, istər - istəməz, antisovet "İldırım" millətçi gənclər təşkilatı yada düşür. "İldırım" 1942 - ci ildə sovet rejimi ilə mübarizə aparmaq, Azərbaycanı SSRİ - dən ayırmaq, respublikanın müstəqilliyini əldə etmək niyyəti ilə qurulmuş gizli qurum olub. Habelə, 1937 - 1938 - ci illərdə həbs olunub xalq düşməni kimi damğalanan, Sibirə göndərilib güllələnən yazıçıların işinə yenidən baxılmasına, onlara bəraət verilməsinə nail olmaq, Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldırmaq da "İldırım"ın məqsədləri sırasında yer alıb. Təşkilat daxilində yeganə yazıçı olan G. Hüseynoğlu, xalq içində təbliğat işi aparmalı idi. Təşkilatın fəaliyyəti o dövrün xüsusi dövlət orqanlarının nəzarət dairəsinə düşdüyündən, izlənən "Ildırım"çılar həbs edilib; Ali Məhkəmənin qərarıyla onlardan üçünə (İsmixan Rəhimov, Hacı Zeynalov, G. Hüseynoğlu) güllələnmə cəzası verilib. Xoşbəxtlikdən o illərdə güllələnmə hökmü müvəqqəti götürüldüyündən, onların hökmü 25 il həbslə əvəzlənib; digərləri isə 10 il həbs cəzasına məhkum edilib. Sibirə sürgün edilən G. Hüseynoğlu, cəzasını Tayşet və Bodaybo arasında (7 il, qış - yay demədən ağac kəsməyə məhkum olunmaqla) çəkib. Nəhayət, Stalin öləndən sonra bir çox məsələlər kimi bu işə də yenidən baxmağa qərar verilib və 1955-ci ilin mayında "İldırım"çılar evə dönmə hüququ əldə edib.

Xalq şairi QABİLin məşhur "GÜLHÜSEYN" şeiri, Xalq yazıçısının xarakterinə poetik ayna tutur: Həm mənzumdu, həm mənsurdu Gülhüseyn. Həm məsumdu, həm məğrurdu Gülhüseyn. Zindanların zülmətini əridən Al şəfəqdi, qızıl nurdu Gülhüseyn… G. Hüseynoğlu çox cəfalar görsə də, uğrunda mübarizə apardığı, ömrünün ən gözəl illərini hər etdiyi dövlət müstəqilliyini görmək nəsibi oldu! O, ədəbiyyatımızın inkişafında xidmətlərinə görə bir sıra ödüllərə, təltiflərə, o cümlədən 2005 - ci ildə müstəqil Azərbaycanın "Xalq yazıçısı" fəxri adına layiq görülüb; 2002 -ci ildən Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü idi. Ədibin vəfatı ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev və dövlət rəsmiləri, ictimai xadimlər adından verilən "Başsağlığı"nda "Azərbaycanın ədəbi və elmi ictimaiyyətinə ağır itki üz verib" cümləsi ilə başlayırdı… Bu cümlələr də "Başsağlığı"ndandır: "…Onun özünəməxsus üslubu və uğurlu poetik axtarışları ilə seçilərək oxucuya zövq aşılayan əsərləri müasirlərimizin həyatını, mənəvi aləmini dolğun əks etdirən bədii lövhələrlə zəngindir. Gülhüseyn Hüseynoğlu ədəbiyyatımızda mənsur şerin ilk və dəyərli nümunələrini yaradıb. Azərbaycan nəsrində bədii - poetik struktur baxımından yeni olan bir janrda meydana gətirilən həmin əsərlər ədəbi tənqidin diqqətini daim özünə cəlb edib və həmişə təqdirlə qarşılanıb. …Yazıçının dərin bədii - estetik keyfiyyətləri və orijinal məzmunu ilə səciyyələnən əsərləri bir sıra dillərə tərcümə olunaraq nəşr edilib.

Gülhüseyn Hüseynoğlu ədəbi və elmi yaradıcılığını ahəngdar şəkildə pedaqoji fəaliyyəti ilə əlaqələndirməklə uzun illər Bakı Dövlət Universitetinin professoru olaraq Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması işinə layiqli töhfələr verib"…

Xalq yazıçısı II Fəxri Xiyabanda dəfn edilib.

**RUHU ŞAD OLSUN!**
**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva**

***https://aqreqator.az/az/medeniyyet/878263***

## *Uzaqgörənlik, orijinallıq, səmimiyyət*

Əziz oxucular, sizə təqdim olunan kitab "Məhəbbətdirmi bu?!" adlanır. Bu, kitaba daxil edilən mənsur şeirlərdən birinin adıdır. Sevən gənc işıqdan danışır. "Ən ağır günlərimin, əzablı anlarımın dayağıdır o işıq". Bu işığın arxasında nə dayanır, biz onu açmırıq. Biz yalnız mənsur şeirin sonunda lirik qəhrəmanın sevgilisindən sorğusuna "Məhəbbətdirmi bu, yoxsa nə, gülüm?!" sorğusuna cavab olaraq, məmnuniyyətlə deyə bilərik ki, əlbəttə, məhəbbətdir, özü də əsl məhəbbət.

Bununla belə buradakı "məhəbbət" sözü, bizcə həm də rəmzi bir məna daşıyır. Vətənə, xalqa, torpağa, adət-ənənələrimizə, mənəviyyatımıza, insanlığa, humanizmə, ata-anaya, paklığa, düzlüyə, təmizliyə məhəbbəti də ifadə edir və ümumən kitabda toplanmış novella, hekayə, mənsur şeir və povestlərdə irəli sürülən müəllif fikirləri ilə səsləşir, həmahəng olur.

Görkəmli ədib Gülhüseyn Hüseynoğlu həyatı hərtərəfli, bütün mürəkkəbliyi ilə təsvir edir, qəhrəmanlarını eniş-yoxuşlardan keçirir, onların kədər va sevincini, qayğı və qəmini göstərməkdən çəkinmir, insanı insan kimi, necə duyursa, necə yaşayırsa, onu mətinliyi, tərəddüdləri, şübhələri, sarsıntıları, əzab və əziyyətləri ilə oxucularına təqdim edir. Məhz buna görə də onun təsvir etdiyi qəhrəmanlar, obrazlar canlı, təbii təsir bağışlayır, sevilir, yadda qalır.

Gülhüseynin novellaları içərisində məşhur "Nigarançılığın sonu" əsəri deyə bilərəm ki, ədəbiyyatımızın qızıl fonduna daxil olan, nadir halda yaradılan əsərlərimizdəndir. Novellanın əsas qəhrəmanları Mustafa va Nazanin hamıya və xüsusən yeniyetmələrimizə gözəl nümunə ola biləcək surətlərdir. Onların bədii obraz kimi yadda qalmaları və başqalarına nümunə ola biləcək səviyyəyə yüksəlmələri müəllifin yüksək sənətkarlığının bəhrəsidir.

"Nigarançılığın sonu" əsərinin maraqla oxunmasını təmin edən başlıca bədii amillərdən biri, bəlka də, əsası novellada məhəbbət motivlərinin istehsalat prosesləri, əsas qəhrəmanların əməksevərliyi, işgüzarlığı, təşəbbüskarlıq və yaradıcılıq qabiliyyəti ilə vəhdətdə, özü də inandırıcı, həyati bədii boyalarla təsvirindədir. Zərgərlik mağazasında satıcı işləyən Nazənin sadəcə olaraq gözəl, göyçək, suyuşirin bir qız olması ilə deyil, həm də xoş rəftarı, diqqətli və həssaslığı, hər alıcının ehtiyacı və zövqünü duymaq bacarığı və yüksək əxlaqi keyfiyyətləri ilə fərqlənir. Onda mağazaya gələn alıcıları sifətdan "oxumaq" bacarığı, qabiliyyəti vardır. Məhz bu qabiliyyəti sayəsində o, Mustafanı duyur, onun insani keyfiyyətlərini özü üçün müəyyənləşdirə bilir.

Nazənini Mustafa ilə bağlayan, ünsiyyət və əlaqəyə təhrik edən şöhrət və mənsab hissləri deyil, xalqımıza xas olan mənəvi təmizlik, sadəlik, abır-həya və namuslu əməyə münasibət kimi gözəl insani keyfiyyətlərdir. Ancaq bu keyfiyyətlərinə görədir ki, onlar oxucularımızın sevimlilərinə çevrilə bilir. Bunu da şübhəsiz, gözəl ədibmizin, ustad sənətkarımızın qələm sehrinin nəticasi kimi qiymətləndiririk.

"Cığallıq" novellasının qəhrəmanları – Qədəmşah və Dürriyəni ayrı-ayrılıqda səciyyəvi xüsusiyyətlərilə nəzərə çatdıran müəllif eyni zamanda onların hər ikisinə xas olan cizgiləri: saf düşüncələri, pak, ülvi məhəbbəti, xalqa sözdə yox, işdə xidmət etmələri və heç kəsdən minnət götürməmələrini də realist boyalarla açıb göstərir. Oxucu, bu əsərin qəhrəmanlarını da təbii olaraq ürəkdan sevir və onlar kimi təmiz olmağı üstün tutur. Bəli, bədii təsvirdə inandırıcılıq, yaratdığı obrazları oxucularına sevdirmək bir yazıçı kimi Gülhüseyn Hüseynoğluna xas olan əsas keyfiyyətlərdan biridir.

Gülhüseyn Hüseynoğlunun ana haqqında bir neçə hekayəsi var. "Ana", "Ağ kəlağayı", "Bir ömrün çıraqları", "Sağ ol, Ana!" və s. Bunlar bir-birinə oxşamır. Hər birinin özünəməxsus xüsusiyyətləri, cizgiləri var, müəllifin ümumi yaradıcılığında, surətlər aləmində öz yerləri var. Kitabda oxuculara təqdim olunan "Sağ ol, ana!.." hekayəsində təsvir olunur ki, rəhmətə gedən ana öz böyük, təmənnasız məhəbbəti, qayğıkeşliyi ilə yenə yaşayır, yenə övladlarına məsləhət verir, pozulan münasibətləri bərpa edir, bir sözlə analığını yenə davam etdirir. Hekayədə müəllif eləcə də halal zəhmətlə dolanmağı, namusla həyat keçirməyi təlqin edir, nümunə göstərir. Və bu nümunəyə oxucu inanır, onu sevir. Kitabdakı hekayələr içərisində "Ata düşüncələri" və "Günlərin bir günündə" silsilə hekayələrindən də nümunələr diqqət mərkəzindədir. "Ata düşüncələri" silsiləsindən verilmiş hekayələrdə təlim-tərbiyə məsələləri, müxtəlif düşüncəli, müxtəlif səviyyəli ataların bu mühüm məsələyə münasibətləri, onların dünyagörüşü öz bədii əksini tapmışdır. Bu hekayələrdə Gülhüseyn Hüseynoğlu mahir bir yazıçı olmaqdan savayı həm də gözəl bir pedaqoq kimi diqqətimizi cəlb edir. Mən elə bu hekayələrdə irəli sürdüyü fikirlərinə görə ona pedaqoji elmləri doktoru adını məmnuniyyətlə verməyin birinci tərəfdarı olardım.

"Günlərin bir günündə" silsiləsindən olan satirik və yumoristik hekayələrə gəldikdə isə deməliyəm ki, bu cəhət - daha çox lirik və şairanə nasir kimi tanıdığımız Gülhüseyn Hüseynoğlunun 70-80-ci illərdəki yaradıcılığında yenidir. Doğrudur, 50-ci illərdə biz bunun rüşeymlərini onun bəzi əsərlərində görmüş, 60-cı illərdə tək-tək nümunələrinə rast gəlmişdik. İndi isə bu sahə get-gedə qol-qanad açmaqdadır və Gülhüseyn Hüseynoğlunu yeni bir cəhətdən bizə göstərir. Bəli, çox yaxşıdır ki, onun 1960-cı ildə başladığı "Günlərin bir günündə" silsiləsi davam edir, get-gedə şaxələnir, qüvvətlənir. Qətiyyətlə deyə bilərəm ki, bu silsiləyə daxil olan hekayələr, ələlxüsus da "Püşk", "Ağzımıza çullu dovşan sığışmır…", "Xalanəvəsi", "Boşluq", "İmtahan", "Günah qatıqdadı", "Bizi da özün kimi bil…" və s. müasir nəsrimizin əlamətdar bədii hadisələridir.

İstedadlı şair, gözəl ədəbiyyatşünas, Gülhüseyn Hüseynoğlu yaradıcılığını yaxşı bilən Sabir Rüstəmxanlı onun hekayə ustalığı haqqında çox doğru olaraq yazmışdır: "Gülhüseyn Hüseynoğlu – hekayələrində sakit, təmkinli yazı manerası olan, konkret detallarla danışan, ciddi, realist yazıçıdır. O, artıq təfərrüatdan, yersiz ricatlardan qaçır, mövzunun baş ideyasını həssaslıqla qabardır. Balaca bir hekayədə iri əsərlərə bəs edə biləcək zəngin həyat materialını sığışdırır. Surətlərin mənəvi-psixoloji aləmini dərindən duyur və göstərir. Bu sözlər onun uşaq və valideynlərə həsr

olunan əsərlərinə də aiddir, satirik hekayələrinə də. Məsələn, "Nigarançılığın sonu" həcmcə o qədər böyük olmasa da, burada bütöv bir psixoloji romanın materialı var və yazıçı azərbaycanlı oğlanla qızın qəribə, gözlənilməz sevgisini novella tərzində dəqiq və psixoloji bir ardıcıllıqla izləyib göstərir. Belə hekayələrin bir xüsusiyyəti də indiki mürəkkəb mənəvi-əxlaqi mühitdə oxucunu təmizliyə, əxlaqi saflığa, nəcibliyə sövq etməsindədir".

Gülhüseyn Hüseynoğlunun mənsur şeirlərinin səsi-sədası çoxdan respublikamızın hüdudlarını aşmış, xarici ölkələrdə də yayılmış, müəllifinə böyük şöhrət qazandırmışdır.

Kitaba daxil edilən bir-birindən gözəl, mənalı mənsur şeirlərdən məni valeh edən, fəlsəfə tutumlu şeirlərdən biri "İstək"dir. "İstək" mənsur şeiri müəllifin bədii kəşfi kimi çox mənalı olub, oxucuda yazıçı cəsarəti haqqında aydın təsəvvür yaradır. Fikirləşəndə ki, bu əsər 1966-cı ildə yazılıb və çap edilib müəllifin hünəri və uzaqgörənliyi gözümdə daha da böyüyür. Bir özünüz fikir verin: "Bülbül meşə istəyir. Gül qoxulu, bahar ədalı, xoş sədalı meşə. İs- təyincə, ürəyincə, cəh-cəh vurmaq üçün.

Qartal dağ istəyir. Dörd bir yanı sıldırım qayalı dağ. Qıy vurub ənginliklərə şığımaq, səma dərinlkilərinə yol almaq üçün…

Qağayı dəniz istəyir. Balıq nəfəsli, sahilləri insan ləpirli dəniz.

Doyunca, yorulunca süzmək, hey süzmək üçün.

Sənətkar sərbəstlik. Ürəklərə girmək üçün, əsrlərə getmək üçün!". Bəli, Gülhüseyn Hüseynoğlu belə cəsarətli yazıçılarımızdan, cəsarətli və novator şairlərimizdəndir. Axı mənsur şeirlərina görə biz onu həm də şair kimi tanıyır, sevirik.

Kitabdakı mənsur şeirlər müxtəlif mövzulardadır. Bu mövzulardan biri də deyərdim ki, Gülhüseynin yaradıcılığında daha qabarıq görünür, böyük maraq doğurur. O da Azarbaycan xalqının qabaqcıl oğullarına yazıçının hüsn-rəğbəti, onların həyat və yaradıcılıq yolu üçün səciyyəvi olan cəhətləri yeni və orijinal bədii boyaları ilə, poetik tapıntıları ilə oxucuya, xü- susilə gəncliyə nümunə göstərməsidir. Zənnimizcə, "Məzar", "Mövqe", "Şəhriyar", "Deyirsən…", "Tar Londonda çalınır", "Yaşıdlar", "Bir mahnı var", "Bir gün", "Tar çalınır", "Qayıq və qara yel", "Əsrlərdan əsrlərə", "Yox, sən gözsüz qalmadın!..", "Sonası", "Abdulla Şaiqin xatirəsinə" və s. Mənsur şeirlərdə oxucular bunun parlaq nümunələrini görə bilərlər.

Kitabdakı povestlərdən, onların maraqlı personajlarından, qəhrəmanlarının əməyə bağlılığından, vətənpərvərliklərindən, məhəbbət yolunda çəkdikləri əzab-əziyyətlərdən və s. kitab müqəddiməsi həcminda geniş danışmağa imkan yoxdur. Bircə onu deyə bilərik ki, Gülhüseyn Hüseynoğlu yaradıcılığına xas olan cəsarət, novatorluq, yığcamlıq, lirizm, emosionallıq, axıcı, ecazkar, təsirli, şairanə dil yazıçının bu əsərlərində də əsas keyfiyyətlərdəndir.

Mən ikinci bir sənətkar tanımıram ki, Gülhüseyn Hüseynoğlu kimi özünə, öz yaradıcılığına son dərəcə ciddi və tələbkar olsun. Bu barədə gözəl ədibimiz, professor Mir Cəlal hələ 1974-cü ildə necə də gözəl yazmışdır: "Gülhüseyn heç kimə bənzəməyən, özünün dəsti-xətti, üslubu olan, həmişə axtaran, poetik kəşflər edən,

özünə tələbkar, əsərləri üzərində zərgər dəqiqliyi ilə işləyən, oxucusuna və ümumən ədəbiyyata hörmət bəsləyən, az yazmağı, mənalı yazmağı sevən yazıçıdır".

Mən görkəmli yazıçı, ədəbiyyatımızda mənsur şeirin yaradıcısı və banisi Gülhüseyn Hüseynoğlunun çoxsahəli, rəngarəng yaradıcılığının tədqiqatçısı olmaqla həm də onun fəal oxucusuyam, desəm, səhv etmərəm. Onun heç bir əsərini gözdən qaçırmamış, yaradıcılıq yolunu müntəzəm izləmiş, onun oxucularla görüşlərində, demək olar ki, həmişə iştirak etmişəm. Və görüşlərin, yaradıcılıq gecələrinin hər birisində də Gülhüseynin oxucular tərəfindən necə səmimi qarşılandığını görmüşəm. Həmişə oxucuların görüşünə yığışdıqları yazıçıdan mənsur şeirlərindən oxumasını xahiş etdiklərinin şahidi olmuşam. Gülhüseyn də təzə mənsur şeirləri ilə yanaşı oxucuların arzuladıqlarını da oxumuşdur. Mənsur şeirin bütün incəliyini oxucuların arzuladıqlarını da oxumuşdur, dinləyiciyə çatdıra-çatdıra oxumuşdur. Gülhüseynin mənsur şeirlərini öz dilindən eşidəsən…

Gülhüseyn Hüseynoğlunun oxucularla görüşlərində, onun yaradıcılıq gecələrində mən daha yaxından görmüş və duymuşam ki, o sözün həqiqi mənasında xalq adamı, xalq yazıçısıdır (ancaq təəssüflənmək olar ki, bu, indiyədək yuxarılar tərəfindən rəsmiləşdirilməyib), xalqın istək və arzularının, dərd və ələmlərinin qüdrətli ifadəçisidir. Onun mənsur şeirlərinin əzbərdən söylənilməsi, hekayələrinin səhnələşdirilib göstərilməsi, ədibin ünvanına deyilən, ürəkdən gələn oxucu və dinləyici sözləri (bunların içərisində müəllim də, şagird də, alim də, tələbə də, fəhlə də, mühəndis də və başqaları olub) xalq məhəbbətinin bariz göstəricisi deyilmi?!

Akademik Aslan Aslanov doğru olaraq yazmışdır: "Gülhüseyn Hüseynoğlunun əsərlərində irəliyə sürdüyü, təbliğ etdiyi fikirlərlə özünün şəxsiyyəti arasında tam bir uyğunluq vardır. İnsana hörmət, bütövlük, nəciblik və paklıq onun şəxsiyyətinin ən səciyyəvi xüsusiyyətləridir. Onun bir yazıçı kimi təbliğ etdiyi fikirlərinin oxucuların qəlbinə dərhal yol tapmasında, bizcə, bunun da böyük rolu vardır". Axı yaradıcı adamın şəxsiyyəti ilə təbliğ etdiyi fikirləri arasında vəhdət olanda həmin sənətkar oxucularına nümunə olur. Hörmətli Aslan müəllimin dediyi kimi oxucuların qəlbinə darhal yol tapır.

Əziz oxucular, bizdə çox vaxt nümunə, nüfuz sahibi olan adamlardan söhbət açılır, onların "defisit" olduğunu söyləyirlər. Bax, belə bir nümunə, belə bir nüfuz sahibi göz qabağındadır, indi sizi onunla növbəti görüşə dəvət edirəm. Bu görüşün çox faydalı, olacağına, uğurlarına tamamilə əminəm.

**Camal Əhmədov,**
**professor**

## *GÜLHÜSEYN*

Həm mənzumdu, həm mənsurdu Gülhüseyn.
Həm məsumdu, həm məğrurdu Gülhüseyn.
Zindanların zülmətini əridən
Al şəfəqdi, qızıl nurdu Gülhüseyn.

Müəllimdir - alnıaçıq, üzüağ.
Ona yaddır başqa cürə yaşamaq.
Özü qıvraq, qayışbaldır, diribaş,
Şagirdinin saqqalı ağ, saçı ağ...

Mücrü onun mücrüsüdür -- xəbərdar!
Mücrüsünə toxunmayın, lo salar.
Gülhüseynə tay tutmasın özünü
Mücrüsü boş, ürəyi boş olanlar.

İstiqanlı ilk fırtına quşudur,
Onu şahin nəğmələri yaşadır.
Öz canından keçməyinə keçdi o,
Ölmədisə -- bu allahın işidir...

Müşfiq dağı sinəsində əbədi,
Müşfiq şeiri -- səcdəgahı, məbədi.
Əzabkeşin, cəfakeşin qisməti,
Ömür yolu, tale hökmü belədi.

Qəzəblənmə, qəzəbinə, hirsinə,
Gülhüseyn tək məşəqqətə gər sinə!
Ona dəyən dəysəydi qeyrisinə...
Başı-gözü çevrilərdi tərsinə.

Vətən! -- deyib sinəsinə çırpmadı,
Hökm oxundu -- gözünü də qırpmadı.
Sal qranit, gül yarpağı Gülhüseyn.
Mənsur şeirin bağça-bağı Gülhüseyn.
Nakam Müşfiq pasibanı Gülhüseyn,
Mənsur şeirin bağıbanı Gülhüseyn.

Masallıdan o, qucaqda ayrılıb,
Qönçə ikən gül budaqda ayrılıb.
Gülhüseyni Bakı çəkib ovxara
O, qınından bura çıxıb sıyrılıb.

Əsəbinin səbəbi də birdimi?
Dirigözlü oda düşüb gəncliyi.
Hörmət elə, səcdə etmə, Pirdimi?!
Ömrü uzun, ürəyi pak, gözü tox
İndi tapıb bir az qulaq dincliyi.

Kələyi yox, hiyləsi yox, toru yox.
Coşmağı var, daşmağı var, zoru yox.
Masallıda yırğalanıb beşiyi...
Azərbaycan torpağında yeri çox.

**Qabil,**
**Xalq şairi**